Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

15 avqust 2014-cü il
№ 25-26 (8939)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti



Xarici siyasətlə bağlı əsas məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasıdır. Əfsuslar olsun ki, son müşavirədən keçən dövr ərzində bu sahədə heç bir irəliləyiş olmamışdır. Əlbəttə ki, müxtəlif bəyanatlar səslənmişdir, müxtəlif səylər göstərilmişdir. Minsk qrupunun həmsədrləri bölgəyə dəfələrlə səfər etmişlər. Ancaq heç bir nəticə yoxdur. Bunun başlıca səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi və münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq cəhdləridir.

Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə birbaşa məşğul olan vasitəçilər tərəfindən Ermənistana heç bir ciddi siqnal verilməmişdir. Bizdə belə bir fikir yaranır ki, məsələ ilə məşğul olan vasitəçilər bu vəziyyəti daha çox bu şəkildə saxlamaqda maraqlıdırlar. Onların əsas marağı ondan ibarətdir ki, bölgədə sabitlik pozulmasın, müharibə olmasın. Biz də sülh istəyirik. Ancaq dəfələrlə bəyan etmişəm ki, biz torpaqlarımızı, haqq-ədalətin bərpasını, beynəlxalq hüququn təntənəsini istəyirik.

Son illər ərzində Ermənistanın bu mövqeyi imkan vermir ki, məsələ danışıqlar yolu ilə həllini tapsın. Əlbəttə ki, məsələnin həlli başqa yolla da mümkündür. Biz bunu heç vaxt inkar etməmişik və açıq bəyan etmişik ki, hərbi yol da istisna edilmir. Çünki son aylarda, illərdə beynəlxalq arenada müşahidə olunan mənzərə onu göstərir ki, əfsuslar olsun, beynəlxalq hüquq işləmir. Güc amili əsas rol oynayır. "Kim güclüdür, o da haqlıdır" prinsipi əfsuslar olsun ki, beynəlxalq əlaqələrin konstruksiyasına böyük zərbə vurmuşdur.

Yəni, bu, reallıqdır. Biz real dünyada yaşayırıq və reallıqla hesablaşmalıyıq. Ona görə də bizim ordu quruculuğu ilə bağlı ardıcıl siyasətimiz bu gün bir daha göstərir ki, nə qədər düzgün və nə qədər vaxtında atılan addımlar idi. Bu gün biz hərbi potensialımızı gücləndirərək məsələni hərb yolu ilə də həll edə bilərik. Sadəcə olaraq hesab edirik ki, hələ danışıqlar potensialı tükənməyib. Biz siyasi, iqtisadi, o cümlədən hərbi təzyiqlərdən istifadə edərək çalışacağıq ki, məsələ dinc yolla həll edilsin. Ancaq həll edilsin. Bu məsələ dondurulmuş vəziyyətdə qala bilməz. Bunu hər kəs bilməlidir. Bu məsələ ilə məşğul olan vasitəçilər də bunu bilməlidirlər və bilirlər.

Hesab edirəm ki, son vaxtlar vasitəçilərin fəaliyyətində müşahidə edilən fəallıq bizim artan iqtisadi və hərbi gücümüzlə əlaqəli olan məsələdir. Çünki onlar da Ermənistan kimi çox yaxşı dərk edirlər ki, istənilən vaxtda biz hərbi gücümüzdən istifadə edərək Qarabağ məsələsini birdəfəlik həll edə bilərik. Bu gün güc amili, bir daha demək istəyirəm ki, həlledici rol oynayır. Biz daha da güclü olmalıyıq, oluruq. İqtisadi, siyasi və hərbi potensialımız kifayət qədər güclüdür və danışıqlarda bu amil müsbət rolunu oynayacaqdır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Tarix və hüquqi nöqteyi-nəzərdən Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur. Azərbaycan xalqı Dağlıq Qarabağda və işğal edilmiş digər torpaqlarda əsrlər boyu yaşamış, yaratmışdır. Bütün tarixi abidələrimiz, toponimlərimiz, kəndlərin, şəhərlərin adları Azərbaycan mənşəlidir. Bu, həqiqətdir. Əlbəttə ki, biz bunu bilirik, dünya da bunu bilir və bilməlidir.

... Məsələnin həlli ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olacaqdır. Başqa variant yoxdur! Mən bunu bir daha bəyan etmək istəyirəm. Heç vaxt Azərbaycan ərazisində ikinci erməni dövləti yaradıla bilməz! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir! Biz sadəcə istəyirik ki, bunu nə qədər mümkündürsə tez edək. Ancaq edəcəyik.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# CƏBHƏ ÜÇÜN - QƏLƏBƏ ÜÇÜN NƏ ETMİSƏN?





**Bu sualla çox adama müraciət etdim. Ariflər nə soruşduğumu necə deyərlər, ilk sözümdən anladılar. Amma sualımı heyrətlə, təəccüblə, lap elə hiddətlə qarşılayanlar da oldu. Bəziləri mənə elə baxırdılar ki, sanki torpaqlarımızın namərd, məkrli, xain, naxələf qonşularımız tərəfindən işğal edilməsindən, müharibə şəraitində yaşadığımızdan, 1milyon soydaşımızın qaçqın-didərgin olmasından indi xəbər tuturlar. Bir çoxunun baxışları iç dünyalarını dərhal açıb ortaya qoyurdu...**

Torpaqlarımızın beşdə biri işğal altındadır. Qanımıza susamış ermənilər 22 ildən çoxdur ki, işğal etdikləri torpaqlarımızda at oynadırlar. 22 ildən çoxdur ki, dünya iyrənc-ikili standartları ilə haqqın, ədalətin təntənəsinə mane olur. 22 ildən çoxdur ki, bu məsələnin həllini çiyinlərinə götürən beynəlxalq təşkilatlar, müxtəlif qurumlar yol ölçməklə, boş-boş bəyanatlar verməklə, gah nala, gah mıxa döyməklə... məşğuldurlar. 22 ildən çoxdur ki...

Bütün bunları görən ermənilər də getdikcə həyasızlaşır, işğal etdikləri torpaqlarımızı talamaqda davam edirlər.

İyul ayının 31-dən isə Ermənistan-Azərbaycan sərhədində və qoşunların təmas xəttinin müxtəlif istiqamətlərində baş verən hadisələr düşmən ölkənin niyyətini, mundar xislətini bir daha açıq şəkildə ortaya qoydu. Erməni təxribatçı qruplarının basqın cəhdləri əvvəlcədən planlaşdırılmış aksiya olsa da, məqsədlərinə nail ola bilmədilər və ciddi itkilər verərək geri çəkildilər.

Deməli, bundan sonra yalnız özümüzə güvənməliyik.

Artıq düşmən təşviş içindədir. Çünki bu gün ölkəmizin iqtisadi gücü, siyasi potensialı Ermənistandan qat-qat üstündür. Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Dövlət başçımızın sözləri ilə ifadə etsək:" Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki...biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib."

Dövlətimizin bu məsələ ilə bağlı siyasəti bəllidir. Azərbaycan torpaqlarında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verilməyəcək. Bir qarış torpağımız da erməni işğalı altında qalmamalıdır və qalmayacaq. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa ediləcək. İşğal edilmiş bütün Azərbaycan torpaqlarında Azərbaycan bayrağı dalğalanmalıdır və dalğalanacaq. Dövlət bunun üçün hər şeyi edir və edəcək.

Bəs biz - sən, mən, o cəbhə üçün, Qələbə üçün nə etmişik, nə edirik, nə etməliyik? Biz Qələbə gününü bayram edəcəyik. Buna heç bir şübhəmiz yoxdur. Möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək: "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq."

Elə düşmənlərimiz də çox yaxşı bilirlər ki, azərbaycanlılar gec-tez onları işğal etdikləri Azərbaycan torpaqlarından qovub çıxaracaqlar... Bəs o günü tezləşdirmək, Qələbəni yaxınlaşdırmaq üçün biz, arxa cəbhədəkilər - mən, sən, o nə etmişik? Ordumuz nə qədər güclü olsa da, arxasında da ölkəmizin gündən-günə artan iqtisadi gücünü, bütün silahlı qüvvələrdən daha güclü bir ordunun gücünü - xalqın birliyini hiss etməli, görməlidir.

Hər səhər işə gedərkən, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına, deməli həm də Ordumuzun daha da gücləndirilməsinə verə biləcəyin töhfə barədə düşün. Axşam işdən evə qayıdanda isə özünə sual ver: "Mən bu gün Ordumuzun güclənməsi - Qələbəmizin tezləşdirilməsi üçün nə etdim?"

***Silah tutan əlin yoxsa, işdən yapış,***
***Kəsək yağı caynağını yurdumuzdan.***
***Qələbəyə gücü çatar Ordumuzun,***
***Arxa görsün arxasında Ordumuz da!***

Yeri gəlmişkən, axırıncı dəfə bu sualı özünə nə vaxt vermisən? Ümumiyyətlə vermisənmi?!

**Rasif TAHİROV**

*MİNNƏTDARLIQ*

# DAHA YAXŞI İŞLƏMƏLİYİK

***Hər bir peşənin öz gözəlliyi və öz çətinlikləri var. Amma mənim aləmimdə dənizçi peşəsinin bənzəri yoxdur. Dənizdə istənilən anda gözləmədiyin bir çətinliklə də və ya qeyri-adi gözəlliklə də rastlaşa bilərsən. Bəlkə məni bu peşəyə daha çox bağlayan da bu gözlənilməzliklərdir. Hər halda peşəmlə fəxr edirəm. Tanımayanlar soruşanda da fəxrlə deyirəm ki, mən dənizçiyəm!***

Üstəlik diqqət, qayğı görəndə işinə daha çox bağlanırsan, daha yaxşı işləməyə çalışırsan.

Bu yaxınlarda "Dənizçi günü" peşə bayramı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla səmərəli fəaliyyətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunan bir qrup dəniz nəqliyyatı işçisi arasında mən də vardım. Nə gizlədim, həmin gün ömrümün ən gözəl anlarını yaşadım. Bu sərəncamı dövlətimizin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxminli kollektivinə göstərdiyi diqqət və qayğının bariz nümunəsi hesab edirəm və yüksək etimada görə dövlətimizin başçısı möhtərəm İlham Əliyevə dərin minnətdarlığımı bildirir, təqdimata görə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyevə "Ömrünüz uzun olsun!" deyirəm.

Yüksək təltifin məsuliyyəti də az deyil. Deməli, bundan sonra daha yaxşı işləməli, etimadı yüksək istehsalat göstəriciləri ilə doğrultmalıyam. Mənə elə gəlir ki, təltif olunanların hamısı mənim kimi düşünür və son illərdəki inkişafından qürur duyduğumuz Azərbaycanımızın daha sürətli tərəqqisi naminə bundan sonra da var qüvvələri ilə də çalışacaqlar.

**Kamran İBRAHİMOV,**
**"Prezident Heydər Əliyev" tankerinin kapitanı**

# BTC İLƏ 2,5 MİLYON TON NEFT NƏQL OLUNUB




Cari ilin iyul ayı ərzində BTC əsas ixrac boru kəməri vasitəsi ilə 2 milyon 544 min 60 ton Azərbaycan nefti nəql olunmuşdur. Cari ilin yanvar-iyul aylarında bu kəmərlə 17 milyon 87 min 200 ton neft ötürülüb. Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2014-cü il avqust ayının 1-nə qədər BTC-yə 252 milyon 228 min 793 ton neft vurulub.

Bundan başqa, cari ilin iyul ayında BTC kəməri ilə ümumilikdə 418 min 773 ton Türkmənistan və Qazaxıstan nefti nəql olunub.




# "BAKI GƏMİQAYIRMA ZAVODU"NA SƏRNİŞİN KATERLƏRİ SİFARİŞ VERİLMİŞDİR

**Rusiya Dəniz Gəmiçilik Registri Azərbaycanın "Bakı Gəmiqayırma Zavodu" MMC-yə üç ədəd 38 M tipli yüksək sürətli sərnişin katerinin inşasını sifariş vermişdir.**

APA-nın "Portnews"a istinadən verdiyi məlumata görə, artıq tərəflər arasında müqavilə bağlanmışdır və katerlərin tikintisinə avqust ayında başlanacaq. Müqavilə üzrə sifarişlər 2016-cı ilin may ayına qədər başa çatdırılmalıdır.

Uzunluğu 38,22 metr, eni 8,2 metr, işçi heyəti 8 nəfər təşkil edən katerlər 80 nəfəri və yükləri mobil dəniz qazma qurğularına, dənizdəki digər neft və qaz obyektlərinə daşımaq üçün nəzərdə tutulur.

Katerlər sahildən 100 dəniz mili uzaqlaşa bilir.

# HERODOT XƏZƏR DƏNİZİ VƏ BAKI HAQQINDA

**Bakının qədim tarixi özündə çoxlu sirlər gizləyir. Bunlar axır zamanlarda bir çox tarixçilərin tədqiqatları nəticəsində az-çox aydınlaşmağa başlamışdır. Bakının tarixinin görkəmli tədqiqatçısı Sara Aşurbəyli arxeoloji məlumatlar əsasında bu nəticəyə gəlmişdir ki, hələ bizim eradan neçə əsr əvvəl Bakının yerində yaşayış məskəni olmuşdur. Azərbaycanın qədim memarlığını öyrənən D.A.Axundov da Qız qalasının memarlıq xüsusiyyətlərini tədqiq edərkən bu nəticəyə gəlmişdir. Bu nəticələri tarixin atası sayılan və eramızdan əvvəl V əsrdə yaşamış Herodotun məlumatları ilə də təsdiq etmək olar. İlk baxışda adama elə gəlir ki, bu mümkün deyil, çünki Herodot öz əsərində nə Bakının, nə də onun yaxınlığındakı yerlərin adını çəkir. Lakin o, Xəzər dənizini belə təsvir edir:**

"...Arazın yeganə yolu düzənlikdən keçərək Xəzər (Herodot onu Kaspi adlandırır) dənizinə tökülür. Xəzər dənizi qapalı hövzədir. Heç bir dənizlə əlaqəsi yoxdur. Ellinlərin (yunanların) üzdüyü dəniz və Herakl sütunlarının (Cəbəllütariq boğazı) arxasındakı Atlantik və Qırmızı adlanan dənizlər- bunlar hamısı yalnız bir dənizdir.

Amma Xəzər dənizi tamamilə ayrı xüsusiyyətə malikdir. Onun uzunluğunu avarlı gəmi ilə on beş günə, enini isə ən enli yerində səkkiz günə üzmək olar. Qərbdən o, Qafqaz silsiləsi ilə sərhədlənir..."




Buradan görünür ki, Herodot kiməsə sübut etmək istəyir ki, Xəzərin başqa dənizlərdən fərqli olaraq okeanla əlaqəsi yoxdur. Bunu sübut etmək üçün Herodot onun eni və uzunluğu haqqda məlumat verir və bunula göstərir ki, Xəzər dənizini yaxşı tanınır. Onun elə bu izahından da biz istifadə edəcəyik.

Əvvəlcə Herodotun verdiyi rəqəmlərin hazırki rəqəmlərlə nə dərəcədə uyğun gəldiyinə nəzər salaq. Herodotda bu rəqəmlərin nisbəti 15:8, hazırda isə 17:8 nisbəti kimidir.

Buradan aydın görünür ki, bu rəqəmlər arasında böyük fərq yoxdur. Bu kiçik fərq isə həm o dövrdə, həm də orta əsrlərdə Xəzərin şimal qurtaracağının Volqanın deltası hesablanması ilə izah olunur, çünki Volqanın deltası Şimali Xəzərdə ən axırıncı dayanacaq olmuşdur.

Bəs Herodot Xəzərin böyüklüyünü hansı ölçülərlə müəyyən etmişdir? Bu ölçü avarlı gəmilərdə üzmə günləridir. Bu da onu göstərir ki, Herodotun dövründə avarlı gəmilər Xəzərin eninə də, uzununa da üzürdü, əks halda bu rəqəmlər haradan götürülmüşdür? Çətin ehtimal etmək olar ki, Herodot və yaxud onun istifadə etdiyi mənbə başqa ölçüləri (yunan stadisi, yaxud fars fərsənki) gəminin üzmə gününə çevrilmişdir. Adətən bu əksinə olurdu. Gəmilərin bir gündə getdiyi orta məsafəni nəzərə alırdılar və üzmə günlərini daha konkret ölçü vahidinə çevirirdilər. Herodot özü Qara dənizin ölçülərini təyin edərkən bu ölçüdən istifadə etmişdir.



Biz bunun əksini edək. Xəzər haqqında Herodotun məlumatlarını nəzərə alaraq avarlı gəmilərin orta sürətini müəyyənləşdirək. Xəzərin qərb sahilində (cənub-qərb küncündən Volqanın deltasına qədər) dəniz yolunun uzunluğu 1000 km-ə yaxındır. Cənub sahilində (Xəzərin ən enli yeri) dəniz yolunun uzunluğu 530 km-dir.

Əgər biz 100 km-i 15 günə, 500 km-i 8 günə bölsək gündə 65-70 km alarıq. Əvvəllər gəmilər sahil boyu üzürdü. Onlar üçün oriyentir sahil idi. Bunun üçün gəmilər gündüz üzməli idi. Beləliklə, gəmilər gündüzlər üzür, gecələr isə sahildə dayanırdı. Əgər bunları nəzərə alsaq, ilin fəsillərindən asılı olaraq gündə 10-12 saat üzmək mümkün idi. Onlar yalnız ilin isti aylarında üzə bilərdi, çünki qışda Xəzərin şimal hissəsi donur. Bu hesabla avarla gəmilər bir saatda 5-7 km yol gedə bilər. Avarlı gəmilərin orta sürətinin bu qədər olduğunu yəqin etmək üçün Ensiklopediyaya baxmaq kifayətdir.

Göründüyü kimi, Herodotun məlumatları son dərəcə dəqiqdir, çünki o dövrdə Xəzərdə dənizçilik inkişaf etmişdi. Çox ehtimal ki, bu dənizçilik ticarət xarakteri daşıyırdı. Bu məsələyə hələ keçən əsrdə, Qafqaz dillərinin elmi əsasda öyrənilməsinin banisi P.K.Uslar diqqəti cəlb etmişdir, o yazırdı: "... Buradan (Herodotun Xəzər dənizi haqqında sözlərindən) görünür ki, artıq Herodotun dövründə... Xəzərdə gəmilər, heç şübhəsiz ticarət gəmiləri üzürdülər". Ancaq sonralar bu fikir nəinki inkişaf etdirilmişdir, əksinə unudulmuşdur.



Bütün bunları təhlil etdikdən sonra belə bir məsələni aydınlaşdırmağa təşəbbüs göstərmək olar. Xəzərin qədim dənizçiləri hansı limanda dayanmışlar? Yəqin ki, limanlardan biri Səfidurud çayının mənsəbi olmuşdur (iki əsr sonra Selevgidlər dövlətinin Xəzəryanı əyalətlərinin hakimi Patrokl Xəzər dənizinə səyahətini buradan başlamışdır), ikincisi- Dərbənddə (axırıncı arxeoloji məlumatlar göstərir ki, həmin dövrdə o artıq var idi), üçüncüsü - Kür çayının mənsəbində (buradan, Xəzərdən Qara dənizə qədər su ticarət yolu başlanırdı), dördüncüsü - Volqanın deltasında... O biri limanlar, yaxud dayanacaqlar isə onların arasında bir günlük yolda - 60 -70 km məsafədə yerləşirdi.

Onların biri bizim Bakı limanı olub. Xəzər dənizində təbii limanlar və qapalı buxtalar çox azdır, Bakı buxtası isə bütün küləklərdən yaxşı qorunur. Bu isə tufanlı, coşğun Xəzərdə ən əlverişli liman olmuşdur. Bu barədə ərəb coğrafiyaçısı əl-Müqəddəsi X əsrdə yazmışdır ki, Bakı Arranın (buraya isə Dərbənddən Kürün mənsəbinə qədər olan Xəzər sahili ərazi daxil edilirdi) yeganə limanıdır. Əgər bu zaman, yəni Xəzərdə gəmiçiliyin geniş yayıldığı bir dövrdə, vəziyyət belə idisə, onda qəti surətdə demək olar ki, yeni eradan əvvəl V əsrdə də o eyni idi.

Deməli, Xəzər dənizində gəmiçiliyin miladdan əvvəl V əsrdə (bəlkə də daha əvvəllər) mövcud olması faktı və bu zaman qədim dənizçilərin hər 60-70 km-dən dayanmaları göstərir ki, onlar Bakı buxtasından yan keçə bilməzdilər. Bundan əlavə məlumdur ki, orta əsrlərdə Bakı mühüm neft ixrac edən mərkəz olub. Amma neft yalnız orta əsrlərdə deyil, qədim dövrdə də yüksək qiymətləndirilirdi. Tam qətiyyətlə deyə bilərik ki, qədim dövrdə də Bakı nefti Xəzərdə üzən tacirlərin nəzərini cəlb etmişdir.

**"DƏNİZ"**

*"Bütöv görümdə"*

# ALIN TƏRİNİN HALAL HAQQI

***Hər kəsin ləyaqət hissi onun əməlləri ilə ölçülür. Mənəvi dəyər və ölçülərin yad təsirlərə, aşınmaya daha çox məruz qaldığı müasir dövrdə saf həyat idealına sadiq, mənən zəngin adamları mənsub olduqları xalqın əvəzsiz sərvəti də saymaq olar. Və burda hansı peşə sahibi olmalarının əhəmiyyəti yoxdur.***

***Qəzetimizin "Bütöv görümdə" rubrikasında kiminlə söhbətləşmək barədə baş sındıranda köməyimə "AXDG" QSC sədrinin köməkçisi Vüqar müəllim çatdı: "İlhamdan yaz,- dedi.- Əsl sən istəyən, axtardığın adamdır. Onu hələ zavodda işlədiyim illərdən tanıyıram. Boğazdan yuxarı danışan deyil. Düzə-düz, əyriyə əyri deyəndir. Həm də bu yaxınlarda "Tərəqqi" medalı ilə təltif olunub. Alnının tərinin, əllərinin qabarının halal haqqını alıb..."***

***Maraq mənə üstün gəldi. Beləcə, "Bibiheybət" Gəmi Təmiri Zavodu İstehsalat şöbəsinin rəisi İlham Cavadovla üzüzə oturduq. Və elə ilk suallarıma "Bütöv görümdə"nin onağından aldığım səmimi cavablardan sonra ürəyimdə Vüqar müəllimə minnətdarlıq etdim. Anladım ki, müsahibim könül verdiyi bu sahəyə nə şöhrət, nə də var sahibi olmaq üçün gəlib. Bu, çılğın olduğu qədər mülayim, qayğıkeş olduğu qədər tələbkar, soyuq göründüyü qədər də istiqanlı... adamın - İlham Sabir oğlu Cavadovun öz həyat fəlsəfəsi var: "Düzə söykən ki, düzdə qalmayasan".***



## ÖMÜRNAMƏSİNDƏN SƏTİRLƏR

*İlham Cavadov əlli beş il əvvəl fevralın 18-də Neftçalanın Xıllı qəsəbəsində dünyaya göz açıb. Atası Sabir kişi dəmir yolunda fəhlə işləyib. Anası Minarə xanım ibtidai sinif müəllimi olub. Alınlarının təri ilə 6 övlad böyüdüb, tərbiyə ediblər. Hətta yarıac-yarıtox olduqları günlərdə də bu ailənin mehribançılığına hamı həsəd aparıb. Bu ailədə hər kəs yerini bilib, böyüyün böyük yeri olub, kiçiyin kiçik. Babalardan miras qalmış əsl azərbaycanlı adət-ənənələri üzərində qərar tutmuş ailə mühitində aldığı tərbiyə, sadə, halal əmək adamları olan valideynlərinin öyüd-nəsihəti, xeyir-duası evin beşinci övladı olan İlhamın da həyata baxışının düzgün formalaşmasında mühüm rol oynayıb. O da erkən yaşlarından haqqa, düzgünlüyə tapınıb, milli dəyərlərə, adət-ənənələrə daxilən bağlı olub. 1976-cı ildə Xıllı kənd orta məktəbini bitirib, keçmiş sovet ordusu sıralarında xidmət edib. 1980-ci ildə "Bibiheybət" Gəmi Təmiri Zavodunda əmək fəaliyyətinə gəmi-gövdə təmirçisi kimi başlayıb. İşləyə-işləyə Azərbaycan Politexnik İnstitutunun metallurgiya fakültəsində ali təhsil alıb. İşgüzarlığı, bacarığı gözdən yayınmayıb. 1983-cü ildən gövdə-qaynaq sexində usta, iki il sonra böyük usta kimi çalışıb. 1986-cı ildə sexin rəisi vəzifəsinə irəli çəkilib. 1996-cı ildən isə İstehsalat şöbəsinin rəisidir.*

*1986-cı ildə ailə həyatı qurub. Ömür-gün yoldaşı Mirfatma xanım İnşaat və Memarlıq Universitetində elektrotexnikadan dərs deyir. Texnika üzrə fəlsəfə doktorudur. Ailənin yeganə övladı Nərgiz xanım İnşaat və Memarlıq Universitetini sənaye qrafikası və reklam ixtisası üzrə fərqlənmə diplomu ilə bitirəndən sonra İstanbulun Memar Sinan Gözəl Sənətlər Universitetində magistratura təhsili alır. Ailəlidir.*

**- İlham müəllim, əvvəla yüksək mükafat münasibətilə sizi qəzetimizin çoxsaylı oxucuları adından ürəkdən təbrik edirik. "Tərəqqi" medalı ilə təltif olunduğunuzu biləndə keçirdiyiniz hissləri oxucularla bölüşə bilərsinizmi?**

- O hissləri, o sevinci sözlə ifadə etməkdə acizəm. Elə bil ən xoş duyğuların ağuşuna düşdüm. Bəlkə gözləmirdim, ona görə belə anlar yaşadım? Hər halda bu yüksək etimada görə dövlətimizin başçısına, həmçinin məni "Tərəqqi" medalına təqdim edən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf müəllimə dönə-dönə minnətdaram. Çalışacağam yüksək etimadı əməli işimlə doğruldum.

**- Uşaqlıqda həkim olmağı arzulamısınız. Bu gün gəmi təmiri ilə məşğul olursunuz. Heç fikirləşməmisiniz ki: "Mən hara, gəmi təmiri hara?"**

- İşim ürəyimcədir. Hərçənd qeyd etdiyiniz kimi, orta məktəb illərində həkim olmağı arzulayırdım. İnsanları ağrıdan, dərdbəladan xilas etmək, ömürlərinə ömür calamaq istəyirdim. Tibb institutuna qəbul olunmaqla bağlı cəhdim alınmadı. Ordu sıralarına çağrıldım. 1977-1980-ci illərdə Murmanskda Hərbi Dəniz Donanmasında xidmət etdim. Üç il sualtı gəmilərdə üzdüm. Ordu sıralarından tərxis olunandan sonra Bakıya gəldim. 1980-ci ilin avqustunda "XXI Qurultay" zavodunda - o vaxt zavodumuz belə adlanırdı,-gəmi gövdə təmirçisi şagirdi kimi işə başladım. O vaxtdan taleyimi bu gəmi təmiri müəssisəsi ilə bağlamışam və heç vaxt peşmançılıq duyğusu keçirməmişəm.

**- İlham müəllim, hər səhər işə tələsirsiniz? Yoxsa sizi işə daha çox vəzifə borcu çəkib aparır?**

- Hər səhər işə tələsməsəydim, yəqin ki, bir müəssisədə 34 il davam gətirə bilməzdim. Hazırda müəssisəmizdə bir özgə əmək ahəngi var. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi gəmi təmirini daim diqqətdə saxlayır. Çalışırıq ki, təmir üçün müəssisəmizə yan alan gəmiləri yüksək keyfiyyətlə və nəzərdə tutulan vaxtda bərpa edib, açıq dənizə yola salaq. Hazırda əsas diqqətimizi 100 tonluq "Zülfü Hacıyev" kran və "Vixr-9" yanğınsöndürən gəmilərini avqustun sonunadək təhvil verməyə yönəltmişik. Mənə elə gəlir ki, bu işin də öhdəsindən gələcəyik.

**- Başqasının sizinlə bağlı fikri sizin üçün nə dərəcədə əhəmiyyətlidir?**

- Kiminsə xoşuna gəlmək üçün yaşamıram. Sevdiyim işlə məşğulam və onu layiqincə yerinə yetirməyə çalışıram. Başqalarından da keyfiyyətli iş tələb edirəm. Bu, kiminsə xoşuna gəlməyə də bilər, nə edim, gəlməsin...

**- Heç özünüzə kənardan baxırsınız? Sizin gözünüzdə İlham Cavadov necə adamdır?**

- Bir az çılğın adamam. Laqeydliyi, biganəliyi xoşlamıram. Başdansovdu iş məni təbdən tez çıxarır.

**- Əlinizdən tutan olub? Özünüz kimlərəsə arxa-dayaq olmusunuzmu?**

- Adətən kasıbın bir əl tutanı olur. Mən də həmişə Allahıma güvənmişəm. Mənim köməyimə ehtiyacı olanların isə heç birini başımdan eləməmişəm.

**- Necə fikirləşirsiniz: haqq həmişə yerini tutur? Ədalətin zəfər çaldığını çox görmüsünüz?**

- Bizim zavodda haqq həmişə yerini tutub. Vicdanla işləyənə diqqət və qayğı ilə yanaşıblar. Heç vaxt kimisə sadəcə qara gözlərinə görə irəli çəkməyiblər.

**- Sizin üçün Vətən nədir?**

- Beşiyimdi, evim-ocağımdı, havamdı, suyumdu, bir sözlə, hər şeyimdi Vətən.

**- Həyatda hansı əməlinizə görə peşmançılıq keçirmisiniz?**

- Həmişə vicdanımın səsinə qulaq asmışam. Ona görə elə bir səhvə yol verməmişəm ki, sonra onun əzabını, peşmançılığını çəkim.

**- Dünyada mərd adamlar niyə azdır?**

- Bəlkə ona görə ki, mərdi qova-qova namərd etmək olur. Bəlkə ona görə ki, mərdin başı daha çox qalda olur?!

**- Dostlarınız çoxdur? Dost bir olar, ya iki fikrinə münasibətiniz?**

- Özü yaxşı dost olmayanın dostu təbii ki, az olar. Mənim dostlarım çoxdur . Başqa millətlərdən olanlar da var. Litvadan olan Leonas Jukasla Mürmanskda Hərbi Dəniz Donanmasında xidmət edəndə dostlaşmışıq. Dostluğumuz bu gün də davam edir. Hazırda Klaypedada yaşayır. Bir qızı, bir oğlu var. Dəfələrlə ailəsi ilə birlikdə Bakıda qonağım olub. Hər dəfə Bakıya gələndə, şəhərimizin sürətli inkişafına heyran qalır. Teztez zəngləşir, hal-əhval tuturuq.

**- Sizə elə gəlmir ki, dünya hazırda sükansız gəmiyə bənzəyir. Görəsən dünyanı fəlakətdən nə qurtara bilər?**

- İman! Allaha inam! Və dünyanı da Allahın mərhəməti ilə yaxşı adamlar xilas edəcək.

**- Həyatda sizi heç arxadan vurublar? Bəs siz əvəz çıxmağa çalışmısınız?**

- Yox. Xırda dedi-qodudan başqa, kimdənsə pislik görməmişəm.

**- Sizə cəsur adam demək olar? Ən çox nədən qorxursunuz?**

- Boy-buxunuma baxmayın. Hər halda mən özümü cəsur adam saymıram. Ailəm üçün, yeganə övladım, onun taleyi üçün həmişə narahat olmuş, qorxu hissi keçirmişəm.

**- Asudə vaxtlarınızda nə ilə məşğul olursunuz?**

- Bir vaxtlar balıq tutmağı, mənzərəli yerləri gəzməyi-görməyi xoşlayırdım. Davud adlı bir nəvəm var. İndi mənim üçün dünya bir yanadır, Davud bir yana. Bilirsiniz nəvə necə şirindir?! Onunla keçirdiyim dəqiqələri heç nəyə dəyişmək istəməzdim.

**- Ən böyük arzunuz?**

- İşğal altda olan bütün torpaqlarımızda Azərbaycan bayrağının dalğalandığını görmək, bütün o yerləri qarış-qarış gəzmək istəyirəm. Ölkəmizin iqtisadi qüdrəti, ordumuzun gücü gündən-günə artır. Əminəm ki, elə bu il ən böyük arzuma da qovuşacağam.

**- On ildən sonrakı zavodunuzu gözləriniz önündə canlandıra bilərsiniz?**

- Əksər gənclərin işləməyə can atdığı müasir bir müəssisə kimi görürəm.

**- Sualların hamısına səmimi cavab verdiniz? Sizi yaxşı tanıyanlar hansı cavaba görə sizi qınaya bilərlər?**

- Heç birinə görə. Məni yaxşı tanıyırlarsa, biləcəklər ki, bu sözlərin hamısı mənim dilimdən çıxıb.

**- Maraqlı söhbətinizə, səmimi cavablarınıza görə çox sağ olun!**

- Siz də sağ olun!

**Rasif TAHİROV**

## *Dənizlərə gözəllik verən gəmilərimiz*





*BİZİM YUBİLYAR*

# YAŞINDAN CAVAN VETERAN

**Ömür ulu yaradanın insana bəxş etdiyi ən gözəl hədiyyədir. Xoşbəxt o adamdır ki, həyatın ixtiyar çağına ləyaqətlə çatır və çatdığı zirvədən keçdiyi yollara baxanda ürəyi fərəh, sevinc hissi ilə dolur. Gəmiçiliyin qocaman işçisi Nuxim Milqrom da belə bir ömür yaşayır. Və ömrün zirvələrinə gedən yolda qazandığı hər şeyə görə özünü ən əvvəl uşaqlıqdan aldığı insanlıq dərsinə və ona cavanlığında məhəbbətlə qucağını açan gəmiçiliyə borclu bilir.**

Nuxim Berkoviç Milqromun ömrünün səkkizinci onilliyini arxada qoyduğunu eşidəndə düzü, inanmadım. Göz dəyməsin! Yəqin ki, heç kim ona səksən yaş verməz. Yaşından xeyli cavan görünür.

Bununla belə, taleyin həmişə üzünə güldüyünü demək olmaz. Uşaqlıq və yeniyetməlik illərində çətinliklərlə az üzləşməyib. Atası Berki İkinci Dünya müharibəsində itirəndə cəmi 10 yaşı vardı. Elə bu yaşda da hələ bərkiməmiş çiyinlərinini ailə yükünün altına verir...

1934-cü il iyulun 26-da Ukraynanın Xmelnitski vilayətinin Krasilov şəhərində dünyaya göz açan Nuxim Milqrom 1953-ci ildə Bakı Dənizçilik Məktəbini, 1971-ci ildə Bakı Dəniz Yolları Məktəbini bitirib. Əmək fəaliyyətinə 1953-cü ildə "Xəzərtanker"in "Molotov" teploxodunda ocaqçı kimi başlayıb."General Həzi Aslanov" gəmisində böyük motorçu, "Qəhrəman Mehdi", "Ulyana Qromova" və sair gəmilərdə donkerman işləyib. "İvan Zemnuxov" gəmisində pompa maşinisti, "Amangəldi İmanov" tankerində təmir mexaniki, "Mühəndis Pustoşkin " tankerində üçüncü, "Qaraqumkanal" tankerində ikinci mexanik üzüb. 1976-cı ildə "Türkmənneft" tankerinin göyərtəsinə böyük mexanik kimi qalxıb. İkiminci illərin əvvəllərinə kimi Gəmiçiliyin müxtəlif gəmilərində böyük mexanik kimi səfərlərə çıxıb. 2003-cü ildə sahildə işə keçirilib. Gəmiçiliyin İstilik texnikası şöbəsi rəisinin müavini işləyib.

Dəfələrlə "Öz peşəsinin ən yaxşı ustası" seçilib. 2009-cu ildə "Donanmanın Fəxri işçisi" döş nişanı ilə təltif edilib.

2004-cü ildə haqq dünyasına qovuşan həyat yoldaşı Tamaradan ona iki yadigar qalıb. Boris və İrina Rusiyanın müxtəlif şəhərlərində yaşayırlar...

Nuxim Milqrom hazırda təqaüddə olsa da Gəmiçiliklə əlaqəni kəsmir. Zəngin təcrübəsi bu gün də dənizçilərin karına gəlir. Yubileyi ilə bağlı ən dəyərli hədiyyəni də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində aldı, ən xoş sözləri, ən şirin arzuları da rəhbərliyin dilindən burada eşitdi...

Tez-tez Xəzərin sahilinə gəlir. Dənizin yaraşığı olan ləngərli gəmilərimizi seyr etməkdən yorulmur. Xəzərlə bağlı o qədər xatirələri var ki...

Nuxim deyir ki, insan ən əvvəl nədən ötrü yaşadığını dərk etməlidir. Onda həyat da gözündə gözəlləşir, illərin necə keçdiyini hiss etmirsən. Bir də görürsən ki, gəlib bu yaşa çatmısan...

Hər yaşın öz gözəlliyi, öz istəyi var. Amma möhkəm cansağlığı bütün dövrlərdə insanın şah arzusudur. Elə buna görə ömrünün doqquzuncu onilliyinə qədəm qoyan yubilyarımıza da yüzdə görüşmək ümidi ilə ən əvvəl möhkəm cansağlığı arzulayırıq.

**"DƏNİZ"**

*Bortda ad*

## "MÖCÜZƏLƏR ADASI"NIN QƏHRƏMANI



Neft Daşlarının tarixini vərəqlədikcə ən çox rast gəldiyimiz adlardan biri də Qurban Abbasovun adıdır. Əmək fəaliyyətinə fəhlə kimi başlayıb, sonralar bir sıra rəhbər vəzifələrdə çalışsa da, onu həmişə sadəcə "Neftçi Qurban" deyə çağırırdılar. Bu adı ona xalq vermişdi.

***Neftçi Qurban bir oğlandır şirindil,***
***Gülər üzlü, saf ürəkli qəhrəman***

sözləri ilə başlanan nəğməni yaşlı nəsil indi də yaxşı xatırlayır.

Neftçi Qurban həqiqətən qəhrəman idi: zaman və tale ona öz hünər və gücünü sınamaq və sübuta yetirmək üçün bu meydanı vermişdi - Neft Daşlarını.

Qurban Abbasov usta Mixail Kaveroçkinlə birlikdə Neft Daşlarında ilk quyuları qazmışdı. Birinci quyunun neftvermə tarixi 1949-cu ilin noyabrına təsadüf edir. 1950-ci ilin sonundan isə quyulardan artıq mütəmadi neft hasilatına başlanır. Neftçi Qurbanın şan-şöhrəti hər yana yayılır.

Neftçi Qurban kim idi? Naxçıvanın Babək rayonunun Payız kəndində anadan olmuş sadə bir



gənc. 1944-cü ildə, 18 yaşında ikən Bakıda, "Artyomneft" trestində fəhlə işləməyə başlamışdı. "Azərneft" Birliyinin qazma kontorunda qazmaçı, buruq ustası, Gürgənneft NMİ şimal qazma sahəsi kontorunun rəisi olmuşdu.

Ancaq neftçi Qurbanı məşhurlaşdıran, xalqın sevimlisinə çevirən Neft Daşları olub. Burada o, Xəzərdə misli görünməmiş nəticələr qazanaraq qazmanın sürətini rekord səviyyəyə çatdırıb.

Qurban Abbasov yarım əsrdən çox Azərbaycanın neft sənayesinə xidmət edib. Bu əlli ilin ilk dövrlərində, deyək ki, 5-10 ildə elə start götürüb, elə hünərlə çalışıb və elə zəngin təcrübə toplayıb ki, sonralar 40 ildən çox bir müddətdə sahənin sanballı müəssisələrinə, böyük neftçi kollektivlərinə rəhbərlik edə bilib. Məsələn, 1967-ci ildən başlayaraq Q. Abbasov bu vəzifələrdə çalışıb: "Xəzərdənizkəşfiyyat" trestinin müdiri, "Xəzərdənizneft" İstehsalat Birliyinin baş direktorunun müavini, "Neft Daşları" NQÇİ-nin rəisi, "Xəzərdənizneftqazsənaye" İstehsalat Birliyinin baş direktoru, "Xəzərdənizneft" İstehsalat Birliyinin baş direktoru, ARDNŞ-in baş müşaviri... Bu vəzifələrdə çalışarkən o, üzən yarımdalma qazma qurğularının Xəzər dənizində işləməyə uyğunlaşdırılması, "Günəşli", "Çıraq", "Azəri", "Kəpəz" kimi iri yataqların kəşfi üçün çox iş görüb.

O illərdə neftçi Qurban sanki əfsanəyə dönmüşdü. Bəlkə insanların ona bu cür baxması da təbii idi. Çünki Q. Abbasov hələ gənc ikən öz dövrünün bir çox ali mükafatlarına layiq görülmüşdü. 32 yaşında onun sinəsini Sosialist Əməyi Qəhrəmanının "Qızıl ulduz"u bəzəyirdi. Nəhayət, ömrünün ahıl çağında ona müstəqil Azərbaycan Respublikasının yüksək mükafatını-"Şöhrət" ordenini almaq da qismət olmuşdu...

Azərbaycan neftçiləri Qurban Abbasovun hünərini, əməllərini, təcrübəsini öyrənir, yaşadır və nəsildən-nəslə ötürürlər.

**F. SADIQOVA**



# 150 milyard dollarlıq layihə Azərbaycandan keçəcək

*Çin 6 min kilometrlik dəmir yolu xətti salacaq*

**Çin hökuməti tarixi İpək Yolunun bərpa olunması ilə bağlı yeni layihə hazırlayır. Avrasiya Sürətli Qatar Yolu (ASQY) adlı 6 min kilometrlik nəqliyyat xətti Qırğızıstan, Özbəkistan, Türkmənistan, İrandan keçməklə Türkiyəyə qədər uzanacaq.**

Rəsmi Pekin Sincan Uyğur bölgəsindən start götürəcək layihə üçün 150 milyard dollar xərcləyəcək. ASQY-nin Qafqaz ərazisində Qars-Ahılkələk-Tbilisi-Bakı dəmiryolu xətti ilə birləşəcəyi də bildirilir. Orta Şərq Strateji Araşdırmalar Mərkəzindən bildiriblər ki, bu yolla Qars-Ahılkələk-Tbilisi-Bakı dəmir yolu xəttinin sərnişin tutumu da genişlənəcək. Yeni Türkiyə-Çin dəmir yolu xətti Marmaray və Boğazın altı ilə inşa ediləcək Avrasiya tuneli vasitəsi ilə davamlı olaraq fəaliyyət göstərəcək. Çinin ən böyük qatar hazırlayan şirkətlərindən birindən verilən açıqlamada qeyd olunub ki, dəmir yolu xətti 2030-cu ilə qədər tam hazır olacaq.

Yeni sərnişin qatarlarının sürətinin saatda 200 kilometr, yük qatarlarının isə saatda 160 kilometr olacağı bildirilir.

## MİNA TRAL GƏMİSİ ALACAQ



**Qazaxıstan Rusiyaya 10750E layihəli ikinci tral gəmisini sifariş verib. Bu barədə İTAR-TASS agentliyinə Rusiya Hərbi-Texniki Əməkdaşlıq üzrə Federal Xidmətinin (RSVTS) direktor müavini Konstantin Biryulin bildirib.**

Biryulinin sözlərinə görə, bu layihə üzrə birinci reyd tral gəmisinin inşasına dair sifariş 2013-cü ildə alınıb. Birinci minatutan gəminin sifarişçiyə 2015-ci ilin üçüncü rübündə verilməsi planlaşdırılır. Gəmi, minaların axtarışı üçün ən yeni hidroakustik stansiya, həmçinin 100 metrədək enə bilən müxtəlif tip sualtı aparatlarla təchiz olunacaq. Gəminin silahlanmasında minaları tapıb zərərsizləşdirmək üçün "Alister-9", həmçinin Fransa istehsalı olan uzaqdan idarə edilən "K-Ster Mine Killer" və "K-Step Inspector" aparatları yer alacaq.

## OKEANLARI DA TƏMİZLƏMƏK MÜMKÜN OLACAQ

**Baltimor şəhərində Günəş enerjisi ilə işləyən su çarxı qurulub, ancaq bu çarx bildiyimiz çarxlardan fərqli olaraq sudan gündə 23 ton plastik atıq çıxara bilər.**

Bununla da okeanların təmiz qalacağı düşünülür. Dəqiq bir rəqəm bilinməsə də, elm adamlarının fikrincə, okeanlarda təxminən 1 milyon ton plastik atıq var və onların hamısı faydalı məhsullara çevrilə bilər. Hazırda Atlantik okeanda atıqlardan yaranmış 2, Sakit okeanda 2, Hind okeanında 1 ədəd üzən ada var. Həm təbiətin gözəlliyi, həm də canlıların yaşam tərzinin qorunması baxımından son dərəcə zərərli olan bu vəziyyətdə tapılan çarə isə çox sadədir.

Baltimor şəhərində may ayında qurulan su çarxı okeanların bu böyük problemini həll etməyə iddialıdır. May ayından iyun ayına qədər, yəni təxminən bir ayda Baltimor limanından 46 ton atıq təmizləyən bu su çarxı tamamilə Günəş enerjisi ilə işləyir. Aparılan araşdırmalara görə, bu su çarxı kirliliyin çox yüksək olduğu nöqtələrdə, yəni okeanlarda qurularsa, gündə 23 ton atıq təmizlənə bilər.

**GÜNƏŞ**

# HƏMİŞƏ XOŞ SORAĞIN GƏLSİN, "AZƏRBAYCAN"!




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Xəzər Dəniz Neft Donanmasının "Azərbaycan" kran gəmisinin uzunluğu 127, eni 34,7 metrdir. Gəminin yükgötürmə qabiliyyəti 3000 tondur. Kranının qaldırıcı gücü 2500 tona çatır. Gəminin sürəti də müasir tələblərə cavab verir. Kifayət qədər yanacaq və içməli su ehtiyatı götürmək qabiliyyəti var.**

Bu və digər göstəriciləri "Azərbaycan"a Xəzərin zəngin karbohidrogen ehtiyatlarını hasil etmək üçün dənizdə ən iri və mürəkkəb layihələrin yerinə yetirilməsində iştirakçı olmaq imkanı verir.

"Azərbaycan" kran gəmisinin işgüzar heyəti hazırda Türkmənistanın ərazi sularında yeni uğurlarına imza atır. Belə ki, "Andoqa" və "Aura" yedək gəmilərimizin müşayəti ilə keçən ayın ortalarında qardaş ölkənin sularına gələn "Azərbaycan" kran gəmisi bağlanmış müqaviləyə əsasən Türkmənistanın "Zigəlibəy" neft yatağında yeni stasionar dəniz özülünün quraşdırılması işlərində yaxından iştirak edir. Ötən müddətdə havanın əlverişsiz keçməsinə baxmayaraq, gəmilərimizin heyətləri işin öhdəsindən müvəffəqiyyətlə gəlirlər.

Həmişə xoş sorağın gəlsin, "Azərbaycan!"

**"DƏNİZ"**

## Milli ordusu olmayan dövlətlər

**Dünyanın bəzi ölkələri sülhsevər qonşularına arxalanaraq, yaxud qoşun saxlamağa imkanı olmadığı üçün Silahlı Qüvvələrə malik deyil. Adətən hərbi təhlükə zamanı belə dövlətlər beynəlxalq müqavilələr əsasında ayrı-ayrı qurumlar və hərbi bloklar tərəfindən qorunur. Modern.az saytı daimi ordusu olmayan 10 dövlətin siyahısını təqdim edir.**

1. Nauru Respublikası. Sakit okeanın şərqində eyniadlı adada yerləşən Nauru dövləti 1968-ci ildən müstəqildir. 10 min nəfər əhalisi olan ada-dövlətinin sahəsi cəmi 21,3 kv.km-dir. Naurunun öz ordusu yoxdur. 1940-cı ildən bəri əldə olunan razılığa əsasən, Avstraliya Naurunun təhlükəsizliyini təmin edir. Ölkə daxilində asayişi isə azsaylı milli polis qüvvələri qoruyur.

2. Lixtenşteyn Knyazlığı. 160 kvadratkilometrlik cırtdan ölkə Avropanın mərkəzində İsveçrə və Avstriya arasında yerləşir. Lixtenşteynin daimi əhalisi 36 min nəfərdən çox olsa da, 1868-ci ildən etibarən silahlı qüvvələrdən könüllü imtina olunub. Eyni zamanda Lixtenşteynin təhlükəsizliyinə heç bir dövlət cavabdehlik daşımır. Əvəzində cırtdan knyazlıqda 120 polis işçisi çalışır.

3. Marşal Adaları Respublikası. 181 kvadratkilometrlik əraziyə və 53 min sakinə malik Marşal Adaları Respublikası da Sakit okeanda yerləşir. Ölkənin daimi ordusu olmasa da, Müstəqil Assosiasiyaya əsasən, Amerika Birləşmiş Ştatları adanın təhlükəsizliyinə zəmanət verir. Bundan başqa, ada-dövlət Amerikanın icazəsi olmadan heç bir 3-cü dövlətlə hərbi əməkdaşlıq edə və öz ərazisində təlim keçə bilməz.

4. Qrenada. 1974-cü ildə Böyük Britaniya müstəmləkəsindən azad olan Qrenada Karib dənizində yerləşən kiçik ada dövlətidir. Ərazisi 344 kvadratkilometr, əhalisi 89 min nəfər olan ölkə 1983-cü ildə Amerika əraziyə qoşun yeridənə qədər öz ordusuna malik idi. Lakin Amerikanın müdaxiləsindən sonra ordu buraxıldı. Hazırda Qrenadanın daxili asayişi qoruyan 500 nəfərlik polis dəstəsi olsa da, xarici təcavüzə qarşı zamin rolunu Amerika oynayır.

5. Andora. Fransa və İspaniya arasında yerləşən Andora knyazlığı 468 kvadratkilometr əraziyə və 76 min vətəndaşa malik növbəti ordusuz dövlətdir. Cırtdan dövlətin polis istisna olmaqla, heç bir silahlı qüvvəsi yoxdur. Beynəlxalq razılığa əsasən, ölkə Fransa, İspaniya və NATO tərəfindən mühafizə olunur.

6. Palau. Filippin dənizində yerləşən və 328 adadan ibarət olan Palau dövlətində 21 min nəfər yaşayır. Öz ordusu olmayan Palau Marşal Adaları Respublikası kimi Müstəqil Assosiasiya haqqında müqaviləyə üzvdür və bu əsasda Amerika tərəfindən qorunur.

7. Samoa. Sakit okeanın cənubunda yerləşən Samoa ada dövləti də orduya malik deyil. Digər cırtdan dövlətlərdən fərqli olaraq ərazi və əhali baxımından da geniş olan Samoa bunula belə, könüllü olaraq silahlı qüvvələrdən imtina edib. 2832 kv.km əraziyə malik dövlətin 188 minlik əhalisini Yeni Zellandiya qoruyur. 1962-ci ildə iki tərəf arasında bağlanan "Dostluq haqqında" müqaviləyə əsasən, Yeni Zellandiya Samoanın istənilən çağırışına səs verməlidir.

8. Kosta-Rika Respublikası. Mərkəzi Amerikanın ən kiçik dövlətlərindən sayılan Kosta-Rika 51 min kvadratkilometrlik əraziyə malikdir. 4 milyon 200 min nəfərin yaşadığı dövlət orduya malik deyil. 1948-ci il dekabrın 1-dən ordu ləğv olunmuş vəziyyətdədir. 1947-ci ildə Qarşılıqlı Yardım haqqında müqaviləyə əsasən, Kosta-Rikanın təhlükəsizliyini ABŞ, Kuba, Çili və s. qitə dövlətləri qoruyur. Son illər hərbi sahəyə diqqətini artıran Kosta-Rika təxminən 10 min nəfərlik hərbiləşdirilmiş dəstələrə də malikdir.

9. Solomon Adaları. Sakit okeanın növbəti cırtdan təmsilçisi Solomon adaları da öz ordusuna malik olmayan dövlətlərdəndir.

Ölkə 992 adadan və 515 min sakindən ibarətdir. 1998-ci ildə tayfalararası qarşıdurmaların baş qaldırdığı Solomon adaları öz daimi ordusu olmadığına görə qonşu dövlətlərdən yardım almışdı. Avstraliya, Yeni Zellandiya, Papua-Yeni Qvineya, Fici və Tonqa "Solomon adalarına regional yardım kampaniyası" çərçivəsində ölkənin daxili təhlükəsizliyini təmin edir.

10. Kiribati. Sakit okeanda 812 kvadratkilometrlik ərazidə yerləşən Kiribatinin əhalisi 103 min nəfərdən ibarətdir. Öz ordusu olmayan ölkənin təhlükəsizliyini Avstraliya və Yeni Zellandiya dövlətləri təmin edir. Daxili asayişi isə 152 nəfərdən ibarət Kiribati polisi nəzarətdə saxlayır.

## İstiyə davam gətirməyin yolları

**Sən demə, istiyə davam gətirmək üçün öz emosiyalarını cilovlamağı bacarmalısan. Bu, Pekin İynəbatırma Mərkəzinin Rusiyadakı rəsmi nümayəndəsi "Dao klinik"in banisi və baş həkimi İqor Roqaninin Rusiya KİV-ləri ilə bölüşdüyü Çin təbabəti qaydalarından biridir.**

İ.Roqanin qeyd edir ki, məlum oldugu kimi, insanın emosional reaksiyaları daxili orqanların işinə təsir göstərir. Hərarət Çin təbabətində təkcə xarici mühitin təzahürü deyil, həmçinin daxili hesab edilir. Daxili hərarət hər şeydən əvvəl ürəyə mənfi təsir göstərir, yüksək temperaturda məhz ürək əziyyət çəkir. Əgər bu zaman insan emosional yük daşıyırsa, ürək-damar sistemi daha yüksək riskə məruz qalır. Yüksək daxili hərarət isti temperaturda ürək döyüntüsünü artırır, arterial təzyiqi yüksəldir, baş ağrısı, zəiflik yaradır. Qidanın, içkilərin, düzgün fiziki yükün və müalicəvi metodların köməyi ilə tarazlığı bərpa etmək olar.

Daha sonra İqor Roqanin "sərin"və "soyuq"qruplardan olan qidalar yeməyi məsləhət görür. Çin təbabətinin təsnifatına görə, bütün ərzaq məhsulları beş qrupa bölünür: qaynar, isti, neytral, sərin və soyuq. Təbii ki, isti havalarda isti yeməkləri (qoyun, quzu, donuz əti, salyami, aktiv souslar, ədviyyatlar - acı istiot, sarımsaq, zəncəfil, darçın, karri) azaltmaq lazımdır. Yaxşı olar ki, soyuq və sərin qidalarla vəziyyət tarazlaşdırılsın: buğda, buğda cücərtiləri, arpa, darı, yabanı düyü, ördək, qaz, dovşan, balıq əti, kalmar, Çin kələmi və gül kələm, brokolli, bolqar bibəri, kabaçok, badımcan, xiyar, pomidor, qulançar, turp, vəzəri, ənginar, avakado, ravənd, kərəvüz, şomu, soya, soya südü, sous, günəbaxan, küncüt, zeytun yağları, lobya, noxud, zəfəran, göbələk, yoqurt, banan, xurma, kivi, naringi, limon, portağal, qreypfrut, motmutlu, alma, qaragilə, böyürtkən, qarağat, qarpız, yemiş, manqo, armud, nanə, ananas, heyva, moruq, çiyələk. "Daxili hərarəti" olan insanların bu təsnifatı nəzərə alması çox vacibdir. Yeməyin temperaturunun da əhəmiyyəti var: soyuducudan çıxardığınız yemək, əlbəttə, sərinləşdirici təsir göstərir.

Gün ərzində suyu kiçik porsiyalarla içmək lazımdır. İstidə tərləmə daha intensiv xarakter alır və itirilən mayenin yerini doldurmaq lazımdır, axı insan orqanizmində bütün biokimyəvi proseslər su mühitində gedir.

Fiziki fəallıqdan imtina etmək olmaz, amma adi rejimdə ağlabatan məhdudiyyətlər qoyulmalıdır. Biz qaçanda orqanizmin səthi sərinləşir. Adi fiziki fəallıq rejimində düzəlişlər etmək lazımdır. Qızmar günəş altında deyil, otaqda, səhər və axşam.

Kəskin temperatur dəyişikliklərindən qaçmaq lazımdır. İstidə bədənimiz müxtəlif patogen faktorlara qarşı daha həssas olur. Əgər soyuq əvvəlcə dəriyə, sonra əzələlərə təsir göstərirsə, temperatur fərqi səbəbindən əzələlərin iltihabı (miozit) meydana çıxa bilər. Odur ki, sərinləşdirici sistemlərdən gələn birbaşa soyuq hava axınından qaçın.

Nəhayət, Çin təbabəti üzrə ekspert isti havada əhvalı yaxşılaşdırmaq üçün baş beyin damarlarını məşq etdirməyi məsləhət görür. Ən sadəsi, adi qalxma və enmə hərəkəti etmək lazımdır. Səhərlər bir neçə dəfə əyilib düzəlməyə çalışın. Bu sadə hərəkətlər baş beyin damarlarını məşq etdirməyə, qan dövranını yaxşılaşdırmağa kömək edəcəkdir. Bundan başqa, vegetativ sinir sisteminin işini sabitləşdirmək üçün baş beyin yarımkürələrinin tarazlaşdırılması üzrə hərəkətlər edilməlidir. Məsələn, yoqa təcrübəsi üzrə növbə ilə müxtəlif burun deşiklərindən nəfəs almağa çalışın, ağac görkəmi alın. Hər hərəkətə gündə 7 dəqiqə vaxt sərf edin: o zaman nəinki istilərə, hətta müxtəlif temperatur və atmosfer təzyiqi dəyişikliklərinə asanlıqla davam gətirəcəksiniz.





# HƏRARƏTİN AZALMASI BÖYÜK TƏHLÜKƏDİR

**15 aprel 1912-ci il. Soyuq yaz gecəsi. Sauthemptondan Nyu-Yorka gedən ingilis sərnişin layneri "Titanik" Atlantik okeanının şimal hissəsində aysberqlə toqquşur. Onun bortunda 2207 adam-1316 sərnişin, 891 heyət üzvü var idi. Laynerin 20 xilasetmə qayığı 1178 sərnişin üçün nəzərdə tutulmuşdu. Toqquşmadan 2 saat 40 dəqiqə sonra "Titanik" suyun dibinə endi. Qayıqlar bortdan yarı yüklə aralandılar. Beləki, laynerin batacağına inanmayan sərnişinlər qayıqlara minməkdən imtina etdilər. Gəmi batandan sonra suyun üzündə 1300-ə yaxın adam qalmışdı. Onların demək olar ki, əksəriyyəti xilasetmə jiletində idi. İki saatdan sonra özünü qəza yerinə çatdıran "Korpatiya" paraxodunun dənizçiləri borta xilasetmə qayıqlarında olan 704 adam qaldırdılar. Suda qalanlardan heç birinin həyatını xilas etmək mümkün olmadı. 1501 adam öldü. Onların hamısı bədənlərinin soyumasından həlak oldular:həmin gecə havanın temperaturu 0, suda +1 dərəcə idi.**





Mütəxəssislər dəniz üzgüçülüyünün tarixi təcrübəsinə və dəniz qəzalarının təhlillərinə əsaslanaraq belə nəticəyə gəldilər ki, bortdan kənarda qalan adamların ölümünə səbəb olan başlıca amillərdən biri də bədənin soyumasıdır. Uzun müddət soyuq suda qalanda bədən tədricən soyuyur, istiliyin tənzimlənməsinin pozulmasından əsəb sistemi və ürəyin fəaliyyəti pisləşir. Buna hipotermiya deyilir. Bu isə çox zaman ölümlə nəticələnir. İnsan bir həftə yeməksiz, bir neçə gün susuz qalır, bədənin soyuması nəticəsində onun ömrü saatlarla, hətta dəqiqələrlə ölçülür.Gəmi qəzası nəticəsində soyumadan hətta onlar suyun üzündə olsalar belə, xilas olanlara çox nadir halarda rast gəlinir. Məsələn, İkinci Dünya müharibəsi zamanı Şimal dənizində İngiltərənin torpedaya tuş gələn təyyarədaşıyan gəmisində 400 adam taxta sallarda açıq dənizə çıxdı. İki gün yarımdan sonra onlardan ancaq 36-sı sağ qalmışdı.

Müəyyən edilmişdir ki, insan bədəninin istiliyinin 35 dərəcədən aşağı olması böhranlı vəziyyətdir, bu zaman orqanizmin həyat fəaliyyətində ciddi dəyişikliklər olur, 34 dərəcədə beyin fəaliyyətində pozulmalar baş verir, 33 dərəcədə ürəyin ritmi birdən-birə aşağı düşür, 30 dərəcədə ürəyin aritmiyası başlanır, düşünmə qabiliyyəti itir. Bədənin temperaturu 24 dərəcəyə enəndə, necə deyərlər, ölüm qapını döyür.

Həkimlər belə hesab edirlər ki, "0" dərəcə olanda insan bədəni 10 dəqiqəyədək soyuyur. Belə halda adamın fiziki hazırlığı, onun fərdi dözümü böyük əhəmiyyət kəsb edir. Həmçinin istiliyi izolyasiya edən geyim, insanın köklük dərəcəsi, yaşı, cinsi və ən başlıcası suda adamın özünü aparması müəyyən rol oynayır. Məlumdur ki, hətta okean suyunun istiliyi yüksək olan tropik rayonlarda insanın suda qalması da məhdudlaşdırılır, çünki suyun hərarəti insan bədənindən aşağıdır. Nəticədə orqanizmdə temperatur fasiləsiz olaraq düşür, gec-tez böhranlı vəziyyət yaranır, bədən öz fəaliyyətini itirir.

Suyun temperaturu 35 dərəcə olanda orqanizm özünü rahat hiss edir və belə halda suda olma müddəti məhdudlaşdırılmır. Suyun hərarəti 20 dərəcədən aşağı olanda bədənin soyuması özünü göstərir. 10 dərəcədə hətta izolyasiya geyimində yarım saatdan çox qalmaq olmur.1963-cü ilin dekabrında Yunanıstanın "Lakoniya" layneri Madeyra adaları yaxınlığında yanandan 3 saat sonra xilasedicilər kifayət qədər isti sudan (18 dərəcə) 113 insan cəsədi çıxardılar və məlum oldu ki, hamısı bədən soyumasından keçinib.

Suyun hərarəti "0" dərəcə olanda insanın bədəninin soyuması 15 dəqiqə vaxt aparır. Buzlu sularda isə ölüm halları gözlənilmədən, hətta bədənin soyumasından da əvvəl baş verir.

Mütəxəssislərin çoxu belə hesab edir ki, suda temperatur 24 dərəcə olanda, bu, insan üçün 7-9 saat təhlükəsiz olur, 5-15 dərəcədə bu müddət 3 dəfə azalır.

Kontr-admiral Stenli Mayls 1972-ci ildə "Edinburq Kral cəmiyyətinin elmi işləri" toplusunda çap etdirdiyi "Gəmi qəzaları və xilasetmə" məruzəsində yazır: "1970-ci ildə bir hadisə alimlərin diqqətini cəlb etdi. Transatlantik laynerində sərxoş sərnişin bortdan suya düşür. Bundan 12 saat sonra xəbər tuturlar. Layner geriyə qayıdır və onu sağ-salamat borta qaldırırlar. Sən demə, sərnişin yaxşı üzgüçü imiş. Həmin gün Atlantikada suyun hərarəti 20 dərəcə olub. Sərnişin üzməklə hipotermiyadan qaça bilib, əgər suyun tempraturu 20 dərəcədən yuxarı olsaydı, o, akulaların yeminə çevriləcəkdi. Məlumdur ki, akula suyun temperaturu 20 dərəcədən aşağı olanda insanlara hücum etmir".

Tarixdə qəzaya uğramış gəminin dənizçilərindən 21 dərəcə soyuqda sağ qalanları da olub. Bu cür nadir hadisələr barmaqla sayılır. Məsələn, 1965-ci il yanvarın 19-da Berinq dənizinin cənub-şərqində keçmiş Sovet İttifaqına məxsus 4("Sevsk", "Sebej", "Naxçıvan", "Boksitoqorsk") gəmi və altı yapon trauleri batdı. Bu hadisə sübh tezdən şiddətli qasırğa nəticəsində baş vermişdi: "Boksitoqorsk" balıqçı gəmisinin tralmasteri Anatoli Oxrimenko 10 gəmidən yeganə adamdır ki, ölümdən qurtula bilib.

A.Oxrimenko sonralar xatirələrində yazmışdı: Sübh tezdən baş qaldıran şiddətli qasırğa bir göz qırpımında "Boksitoqorsk"u buzlaqdan açıq dənizə çıxardı. Bir-birini əvəz edən sərt dalğaların zərbəsi getdikcə daha güclü olurdu. Biz tədbir görməyə macal tapmamış, dalğa gəminin istiqamətini dəyişirdi. Ayaq üstə güclə dayanırdıq. Növbəti dalğanın sol tərəfdən zərbəsindən sonra gəminin gövdəsi sanki inildədi, cırıldadı. Sonra trauler əyilməyə başladı, biz hamımız göyərtəyə çıxdıq. Hər şey məlum oldu:daha gəmini xilas etmək mümkün deyildi!..

Gəmi çevriləndə suyun üzərində 4 dənizçi var idi. Mən gəminin alt hissəsindən yapışıb qalmışdım. O biri dənizçilər üzərək mənim yanıma gəlməyə çalışırdılar. Çətinliklə çəkməmin bir tayını çıxara bildim. Sonra dalğa məni də gəmidən araladı, yoldaşlarım isə görünməz oldu. Ölümdən qurtulmaq üçün suyun üzərində çapalayırdım. Bu vəziyyətdə nə qədər qaldığımı deyə bilmərəm. Amma qüvvəm tükəndiyi bir vaxtda hadisə yerinə gələn "Urup" traulerini gördüm...



Anatoli Oxrimenkonun 21 dərəcədə soyuqda 10 bal gücündə qasırğada buzlu suda qalması gəmi qəzası tarixində nadir hadisə hesab olunur.

Soyuq suda adam özünü necə aparmalıdır: hərəkətsiz qalmalı, yoxsa fəal üzməklə özünü qızdırmalı? Bir sıra alimlər belə hesab edirlər ki, fəal hərəkətlə müəyyən müddətə itirilmiş istiliyin əvəzini qaytarmaq mümkündür.Təcrübə göstərir ki, suyun üzərində qalan və özünü gəmiyə və ya hər hansı bir əşyaya sıxaraq hərəkətsiz duranlar tez həlak olurlar.

Bəzi mütəxəssislər isə tamamilə əks mövqedən çıxış edərək, bildirirlər ki, fəal hərəkət orqanizmdə istilik ehtiyatının azalmasını sürətləndirməklə, soyuq suda təhkükəsiz qalmaq imkanlarını azaldır, güclü dalğada həddindən artıq üzmək bədənin soyumasını tezləşdirir.

Bədənin soyumasının qarşısını almaq və suda uzun müddət



təhlükəsiz qalmaq üçün bir neçə qaydaya əməl etmək lazımdır. Hətta ən çətin anlarda belə qorxu hisslərini yaxına buraxmamalı, xilas olmağına inanmalı və həyat uğrunda mübarizə aparmalısan. Gəmi qəzası zamanı ruhdan düşmək, psixoloji sarsıntı keçirmək bədənin soyumasına təkan verir, onu fəaliyyətsizləşdirir, yaşamaq yanğısını söndürür. Belə halda cəhd edib vertikal vəziyyətdə dayanmaq, dizləri qarın boşluğuna, əlləri isə bədən boyunca və ya döş qəfəsinə sıxmaq lazımdır. Bu , bədənin döş nahiyəsində istiliyi saxlamaq və dərialtı toxumaları qorumaq üçün gərəkdir.Başı bacardıqca sudan yuxarıda tutmaq lazımdır ,çünki bədən istiliyinin itirilməsinin 50-75 faizi onun payına düşür. Qəza baş verəndə soyuq suda tələsik sahilə və ya sala, qayığa tərəf üzmək o zaman mümkündür ki, sahillə sənin arandakı məsafə 30-40 dəqiqədən artıq vaxt aparmasın. Müəyyən edilmişdir ki, suyun hərarəti təxminən 10 dərəcəyə yaxın olanda, adam xilasetmə jileti ilə 1500 metr üzə bilər, bundan sonra bədənin soyuması başlayır.

Dənizçi üçün bortdan kənarda qalmaq obyektiv reallıqdır. Dənizçilik tarixində belə hallar çox olmuşdur. Mən öz unikallığı ilə seçilən bir hadisəni nəzərinizə çatdırmaq istərdim.

1977-ci ilin yayında okeanda cavan bir ingilis dənizçisinin qeyri-adi xilası barədə xəbər bütün dünyanı heyrətə saldı.Bu hadisə Sulavesi dənizində olmuşdu.

İngilis tankeri " Şefron felay" Makasari körfəzindən çıxaraq Sulavesi dənizinə yola düşdü.19 yaşlı matros Keyt Uotson dan yeri söküləndə yuxudan ayıldı və təmiz havaya çıxdı. Göyərtədə ayağı sürüşdü və yıxıldı.

Matros huşunu itirdi. Şahə qalxan dalğa onu çəkib apardı. Bir zaman o hiss edir ki, bortdan kənardadır. Tanker çox uzağa getmişdi.

Keyt işçi kombinizonunu və ayaqqabılarını çıxarır. O, başı üzərində buludlar qaynayan dağı görür. Birdən yadına nə vaxtsa yaşlı dənizçilərdən eşitdiyi bir kəlam düşür: Dünyada elə bir it və ya pişik yoxdur ki, sahilə həsəd aparmasın və oraya üzmək istəməsin. Və gənc matros qərara alır ki, mütləq sahilə üzməlidir, yaşamalıdır. Keyt bütün günü üzdü. Amma dağlar uzaqda idi. Buna baxmayaraq o, ümidini üzmür və yenədə sahilə can atırdı. Birdən onun qarşısına üzən qollu-budaqlı ağac çıxır. Dənizçi başa düşür ki, ağacın üstünə çıxsa, o yaralana bilər və qan qoxusu akulaların diqqətini cəlb edər. O, ağacın üstünə çıxmır.

Gecə düşür. Yorulmaq bilməyən Keyt üzməyinə davam edir. O biri gün üzü günəş şüalarından yanır. Növbəti gecə sahildə tonqal görür, bu onu ruhlandırır. Bundan əlavə o, özü üçün istinad nöqtəsi tapmış olur. Bununla belə, Keyt getdikcə gücdən düşür, yaddaşı zəifləyirdi, qolları heysizləşdiyindən o, arxası üstə dincəlmək qərarına gəlir....

25 mil üzən matros üçüncü gün sahilə çıxa bildi. Demək olar ki, onun əzabları qurtardı, amma zavallı dənizçi kimsəsiz səhraya çıxmışdı. Buna baxmayaraq, Keyt yenə ruhdan düşmür və özünü xilas etmək üçün yollar axtarır. Həyat isə böyük qayalıqların o üzündə idi. Matros qayalıqları keçmək üçün gah sahil boyu qaçır, gah da üzürdü.

Nəhayət, o, balıqçılara rast gəlir. Onlar Keyti evlərinə aparır, yedirdib-içirdir, lazımi tibbi yardım göstərirlər. Balıqçılar qəsəbəsi mərkəzdən uzaq idi. Yerli hakimiyyət onun sözlərinə inanmırdı. Daha doğrusu, Keytin dedikləri onların ağlına batmırdı. Gənc dənizçini bir neçə həftədən sonra "Deyli Meyl" qəzetinə müsahibə verəndən sonra buraxdılar.

Bədəndə istiliyin azalması problemi ilə mütəxəssislər 1958-ci ildən ciddi şəkildə məşğul olmağa başlayıblar. O vaxt Beynəlxalq dəniz məsləhəti təşkilatı yaradıldı...

Zaman-zaman dünya sularında baş verən qəza hadisələrinin təhlili göstərir ki, dənizçi ən çətin vəziyyətdən baş çıxara bilən iti əqlə, dəmir kimi psixoloji dözümə, möhkəm fiziki hazırlığa malik olanda , itkilərin sayı az olur. Bu keyfiyyətləri isə dənizçi öz üzərində işləməklə qazana bilər.

**Hazırladı: V.SƏTTARLI, "DƏNİZ"**

İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Валюта платежа — Ödəniş valyutası
### CURRENCY OF PAYMENT

Валюта, в которой по условиям сделки должна быть произведена оплата товара либо услуг или погашение кредита. Фрахт обычно обусловливается и исчисляется в свободно конвертируемой валюте, а оплачивается в обусловленной валюте платежа по определенному валютному курсу.

Müqavilə şərtlərinə görə malın, yaxud göstərilən xidmətin və ya kreditin ödənilməsinin həyata keçirilməli olduğu valyuta. Fraxt adətən sərbəst dönərli valyuta ilə şərtləşdirilir və hesablanır, ödənilməsi isə müəyyən valyuta məzənnəsi üzrə şərtləşdirilmiş ödəniş valyutası ilə həyata keçirilir.

### Варрант — Varrant
### WARRANT

Специальное свидетельство, выдаваемое товарным складом о приеме товара на хранение. Состоит из двух частей: складочного и залогового свидетельств и имеет характер товарораспорядительного документа. Право владения складированным товаром может быть передано другому держателю варранта внесением на данном свидетельстве передаточной надписи. Залоговое свидетельство может быть использовано для получения займа под залог товара. Складированный товар выдается держателю варранта только при предъявлении обеих его частей.

Saxlanmaq üçün malın qəbul edilməsi haqqında mal anbarı tərəfindən verilən xüsusi şəhadətnamə. İki hissədən - anbar və girov şəhadətnamələrindən ibarətdir, mal üzərində sərəncamverici sənəddir. Anbara yığılmış mala sahiblik hüququ bu şəhadətnaməyə təhvil verilmə qeydi yazılmaqla varrantın digər sahibinə verilə bilər. Malı girov qoymaqla istiqraz almaq üçün girov şəhadətnaməsi istifadə oluna bilər. Anbara yığılmış mal varrant sahibinə yalnız onun hər iki hissəsi təqdim edildikdə verilir.

### Василики — Vasiliklər
### VASILIKI

Последняя кодификация византийского права, законченная в 890 г. при императоре Льве VI, прозванный "Мудром". Состоит из 60 книг. В основе лежит законодательство императора Юстиниана. При составлении был использован Прохирон - кодификация институтов византийского права, осуществленная в 879 г. по приказу Василия I. Содержит также заимствования из Родосского морского кодекса. В позднейших списках отражены сочинения византийских юристов XI-XII вв. Инкорпорированные в Василики принципы и нормы позитивного права, санкционированные гос. властью (императором), регулировали различные вопросы, включая и отношения, складывавшиеся в процессе морской торговли и мореплавания в Средиземном и Черном морях.

Bizans hüququnun sonuncu məcəlləşdirilməsi (qüvvədə olan qanunların sistemə salınması). Müdrik adlandırılmış imperator VI Levin dövründə 890-cı ildə başa çatdırılmışdır. 60 kitabdan ibarətdir. İmperator Yustinianın qanunvericiliyinə əsaslanır. Tərtib edilərkən Proxirondan - I Vasilinin əmri ilə 879-cu ildə həyata keçirilmiş Bizans hüququ institutlarının məcəlləşdirilməsindən istifadə olunmuş, habelə Rodos dəniz məcəlləsindən də müəyyən hissələr götürülmüşdür. Çox sonrakı üzdən köçürmələrdə XI-XII əsrlərin Bizans hüquqşünaslarının əsərləri əks etdirilmişdir. Dövlət hakimiyyəti (imperator) tərəfindən sanksiyalaşdırılmış, vasiliklərə inkorporasiya edilmiş (dövlət qanunlarının müəyyən bir qaydada - xronologiya üzrə, əlifba üzrə, hüquq bölmələri üzrə sistemə salınması) pozitiv hüququn prinsip və normaları, Aralıq və Qara dəniz hövzələrində dəniz ticarəti və dəniz üzgüçülüyü prosesində formalaşan münasibətlər də daxil olmaqla, müxtəlif məsələləri tənzimləyirdi.

### Ватерклерк — Vaterklerk
### BOARDING CLERK, WATER CLERK

Клерк, служащий на борту судна. Как правило, вне офиса выполняет по поручению агентской компании все работы, связанные с агентированием судна - оформление прихода, отхода судна, снабжение судна деньгами, провизией, водой, топливом, заказ лоцмана, сюрвейера и т.п.

Gəmi bortunda qulluqçu. Bir qayda olaraq, ofisdən kənarda agent şirkətinin tapşırığına əsasən gəmiyə agent xidmətinin göstərilməsi ilə bağlı bütün işləri - gəminin qəbul edilməsinin, yola salınmasının rəsmiləşdirilməsini (sənədləşdirilməsini), pulla, ərzaqla, su ilə, yanacaqla təchiz edilməsini, dəniz bələdçisinin, sürveyerin sifariş edilməsini və s. yerinə yetirir.

### Вексель — Veksel
### BULL OF EXCANGE

Документ определенной формы, предcтавляющий собой денежное обязательство. Различают простой и переводный вексель, или тратту. Простой вексель содержит обязательство векселедателя выплатить определенную сумму лицу, которому выдан вексель, либо лицу, которому этот векселедержатель прикажет. Переводный вексель (тратта) представляет собой поручение векселедателя (трассанта) плательщику по векселю (трассату) уплатить векселедержателю (ремитенту) определенную денежную сумму.

Pul öhdəliyini özündə əks etdirən müəyyən formalı sənəd. Sadə və köçürmə veksel, yaxud tratta fərqləndirilir. Sadə veksel onun verildiyi şəxsə, yaxud veksel sahibinin əmr etdiyi şəxsə müəyyən məbləğin ödənilməsi üçün veksel verənin öhdəliyini əks etdirir. Köçürmə veksel (tratta) veksel verənin (trassantın) veksel ödəyənə (trassata) müəyyən məbləği veksel sahibinə (remitentə) ödəməsi ilə bağlı tapşırığıdır.

### Вес брутто — Brutto çəkisi
### GROSS WEIGHT

Масса товара вместе с внутренней упаковкой (неотделимой от товара до его потребления) и внешней - тарой. В практике международной торговли используются также термины "полубрутто" (вес брутто с вычетом массы наружной упаковки) и фактический вес брутто.

Daxili (maldan istifadə edilənə kimi ondan ayrılmaz) və xarici (üst) qablaşdırma - tara ilə birlikdə malın kütləsi. Beynəlxalq ticarət praktikasında həm də «yarımbrutto» (üst qablaşdırmanın kütləsi çıxılmaqla bruttonun çəkisi) və «bruttonun faktiki çəkisi» terminlərindən də istifadə edilir.

### Вес выгруженный — Boşaldılmış çəki
### DELIVERED WEIGHT

Вес товара, установленный в пункте назначения и указанный в документе проверки веса по договоренности между продавцом и покупателем. При сдаче товара по весу выгруженному риск за возможную убыль при транспортировке несет продавец, а не покупатель.

Təyinat məntəqəsində müəyyənləşdirilən və satıcı ilə alıcı arasında razılaşmaya görə yoxlama sənədində göstərilən malın çəkisi. Malı boşaldılmış çəki üzrə təhvil verərkən, nəqletmə zamanı mümkün itkiyə görə riskin məsuliyyətini alıcı deyil, satıcı daşıyır.

### Вес на ответственности грузоотправителя — Çəki yükgöndərənin məsuliyyətində
### SAID TO WEIGHT

Оговорка, вносимая судовладельцем в коносамент, когда нет возможности проверить массу погруженного на судно груза или когда у судовладельца имеются основания подозревать, что масса принятого груза определена неточно. В последнем случае капитан судна, кроме внесения в коносамент указанной оговорки, должен также заявить грузоотправителю письменный протест.

Gəmiyə yüklənmiş yükün kütləsini yoxlamaq imkanı olmadıqda və ya qəbul edilmiş yükün kütləsinin qeyri-dəqiq müəyyənləşdirildiyinə gəmi sahibinin şübhələnməyə əsası olduqda, konosamentə gəmi sahibinin daxil etdiyi qeyd-şərt. Sonuncu halda gəmi kapitanı konosamentə həmin qeyd-şərti daxil etməklə yanaşı, yükgöndərənə yazılı protest təqdim etməlidir.

### Вес нетто — Netto çəkisi
### NET WEIGHT

Масса товара без тары и упаковки. В ряде стран при исчислении таможенной пошлины в вес нетто включается и масса внутренней неотделимой от товара до его употребления упаковки (вес полунетто). При весе нетто, как правило, устанавливается цена на товар с учетом также стоимости тары и упаковки.

Tarasız və qablaşdırılmamış malın kütləsi. Bir sıra ölkələrdə gömrük rüsumu hesablanarkən, netto çəkisinə mal istifadə edilənə kimi ondan ayrılmayan daxili qablaşdırmanın kütləsi (yarımnetto çəkisi) də daxil edilir. Netto çəkisi üzrə malın qiyməti müəyyənləşdirilərkən, bir qayda olaraq, tara və qablaşdırmanın da dəyəri nəzərə alınır.

### Вес отгруженный — Yüklənmiş çəki
### SHIPPED WEIGHT

Масса товара, установленная при его отгрузке в пункте отправления и указанная в транспортном документе. Оплата по отгруженному весу обычно выгодна продавцу, так как он не несет риска за уменьшение массы товара в пути.

Səfərəçıxma məntəqəsində yüklənmə qurtaran zaman malın müəyyən edilən və nəqliyyat sənədində qeyd olunan kütləsi. Yüklənmiş çəkiyə görə ödəniş adətən satıcıya sərfəlidir, çünki o, yolda malın kütləsinin azalmasına görə risk məsuliyyəti daşımır.

*(Davamı var)*

## GƏMİ QƏZASI



Liviya sahillərində qanunsuz mühacirləri daşıyan gəmi qəzaya uğrayıb. Bildirilir ki, qəza nəticəsində 20 nəfər ölüb, onlarca insan itkin düşüb. Gəmidə İtaliya sahillərinə çatmaq istəyən 150 nəfərin olduğu qeyd edilir. Sahil mühafizə xidməti ərazidə axtarış-xilasetmə işləri aparıb.

**Xəbəri "İTAR-TASS" yayıb.**

## AZI 14 NƏFƏR HƏLAK OLUB

Banqladeşin paytaxtı Dəkkənin yaxınlığında sərnişin gəmisi qəzaya uğrayıb. Dəqiqləşdirilməyən məlumata görə, gəmidə 250 nəfərə yaxın sərnişin olub. "Frans-Press"in yerli polisə istinadən verdiyi məlumata görə, 110 nəfəri xilas etmək mümkün olub. Polisin nümayəndəsi Xalid Hüseyn deyib ki, hadisə yerində 14 cəsəd aşkar edilmişdir.

Hadisə Dəkkə şəhərindən 37 kilometr cənub-şərqdə Padma çayında baş verib. Yerli "Daily Star" qəzetinin yazdığına görə, çayda güclü axın gəminin aşmasına səbəb olub. Banqladeş Daxili Su Nəqliyyatı İdarəsinin nümayəndəsi isə bildirmişdir ki, qəzaya güclü axınla yanaşı, həm də gəminin həddən artıq yüklənməsi səbəb olmuşdur.

Qeyd edək ki, su nəqliyyatı Banqladeşdə sərnişinləri daşımaq üçün əsas vasitədir. Lakin ölkədə mütəmadi olaraq gəmi qəzaları baş verir. Hər il onlarla adam gəmi qəzaları nəticəsində həlak olur. Bu ilin may ayında Banqladeşin Muşiqanj rayonunda Manqxa çayında baş verən gəmi qəzası nəticəsində onlarla adam həlak olmuşdu...

## AĞCİYƏRDƏ DİRİ BALIQ?

Hindistanda çay kənarında dostları ilə oynayan 12 yaşlı Anil Barela adlı uşaq 9 santimetr uzunluğunda balıq udub. Balıq ağciyərdə daim hərəkət etdiyindən uşaq nəfəs almaqda çətinlik çəkməyə başlayıb.

Həmçinin, qanında oksigenin faizi xeyli aşağı düşüb. Uşağın narahatçılığının səbəbini öyrənmək üçün xəstəxanada müayinədən keçiriblər. Müayinə zamanı uşağın ağciyərlərində balıq aşkar edilib. Nəhayət, 45 dəqiqəlik cərrahiyyə əməliyyatından sonra balıq uşağın ağciyərlərindən diri çıxarılıb.



# YARIZARAFAT, YARIGERÇƏK

- Allah hər kəsə ürəyinə görə versə, gör nə qədər şey artıq qalar.
- Günah həmişə öləndə olursa, deməli dünyadan köçənlərin hamısı günahkardır?
- Bəziləri təbiəti çox sevdikləri üçün özlərini tez-tez dağ başına qoyurlar?
- Tanrıdan bir şey istəyirəm: mənə səhv etmək imkanı verməsin.
- Yalanı yalanla silmək olmaz.
- Bizə çox yaxşı danışan yox, çox yaxşı işlər görən və işi çox yaxşı görənlər lazımdır.
- "Delovoy vid"ə qalsa, onda vay başını aşağı salıb, işini görənlərin halına.
- Bildiklərini babalarına da verməyənlər babalarının yolu ilə gedirlər?
- O dünyada işim "xod" gedəcək. O qədər haqqımı yeyənlər olub ki...
- Kasamız balaca olduğu üçün səbir kasamız tez dolur?
- Səbir kasası dolu olanlar təzə kasa almalıdırlar?
- Ən böyük nazir hazırın naziridir.
- Əhalinin sayı artdıqca adamların sayı niyə azalır?
- Yer olsa, hər kəsi yerində oturtmağa nə var ki?
- Bu qış soyuq keçsə, vay halıma. Yandırmağa təkcə imanım qalıb.
- Pul təkcə adamlığını itirənlərə lazım olur ki?
- Vaxt baxımından da mənim üçün maraqlıdır. Özündən böyüyü görəndə dərhal quzu cildinə girənlər, özündən kiçiyi görən kimi əjdahaya necə dönürlər?
- Tanış olmağımıza nə lüzum? Mən sizin kimi o qədər özündən razılar görmüşəm ki...
- Bəzilərinin o dünyada çəkdiklərini görməkçün Cəhənnəmə getməyə dəyər.
- Deyirəm qoyunu arabir çobana da tapşırmaq lazımdır.
- Köhnə də olsa, arada pərdə mütləq olmalıdır.
- Bəzilərinin başı ayaqları qədər bildiyi üçün baş-ayaq danışırlar?
- Ağa nə vaxta kimi deyəcək: sür dərəyə! Bir dəfə də təpəyə sürdürsə, dünya dağılar?
- Metrə olmadığı üçün bəziləri ölçü götürə bilmir?
- Məni ancaq gərək "baqac"a qoysunlar? Başqa münasib, heç olmasa bir az böyük yer yoxdur məgər?

***Rasif TAHİROV***

# "DƏNİZ"İN GÜLÜŞ PAYI

İstirahətə gələn adam deyir:

- Evin kirayəsi çox deyilmi?
- Nə danışırsınız, pəncərəsi dənizə baxan belə evin qiyməti haqqında heç danışmağa dəyərmi?
- Əgər mən pəncərədən dənizə baxmayacağıma söz versəm, onda necə?

* * *

Ana uşağını yatağa qoyaraq deyir:

- Bax belə, mənim əzizim. Sənə nə lazım olsa, "mama" deyə bərkdən bağırarsan. O dəqiqə atan yüyürüb gələcək.

* * *

Gəmidə sərnişinlərin birinə səhər yeməyindən sonra balaca fincanda bulanlıq bir şey gətirirlər. Sərnişin çox baxır, onun çay və ya qəhvə olduğunu ayırd edə bilmir. O, xidmətçini çağırıb soruşur:

- Başa salın görüm, bu, qəhvədir, yoxsa çay?

Xidmətçi cavab verir:

- Gərək ki, çaydı.
- Xahiş edirəm, bu fincanı aparın. Bu, çaydırsa, mənə qəhvə, yox, qəhvədirsə, onda mütləq çay gətirin.

* * *

- Kababın rentgenini mənə nə üçün vermisiniz?
- Rentgen nədir?
- Burada yalnız sümüklər görünür, ətdən əsər-əlamət yoxdur.

* * *

Şahidlərdən biri oğlandan soruşur:

- Nikah kəsənə bir şey verdin?
- Hə, bir onluq verdim.
- O nə dedi?
- Bir söz demədi, nişanlıma baxıb beş manat qaytardı.



# SAAT BİZİ TEZ QOCALDIR?!



**Britaniya alimlərinin Edinburq Universitetində apardığı tədqiqatlar insan orqanizminin əsas qocalma səbəbini aşkara çıxarıb. Tədqiqat rəhbəri Endryu Stivenson iddia edir ki, təqvim və saat olmasaydı, insan ömrü indikindən qat-qat uzun olardı: "İnsanlar gün ərzində işlərini saata görə planlaşdırırlar. Hər yerdə təqvimlər var və insanlar hər günün necə qurtardığını, növbəti günün necə başladığını bilirlər".**

Sadalananların insan psixologiyasına güclü təsir etdiyini və insan həyatını proqramlaşdırdığını deyən Stivenson, hər rəqəm dəyişdikcə insanın təhtəlşüurunda ömründən daha bir gün getdiyi təəssüratının yarandığını qeyd edib. Bu da onun orqanizminə təsir edir. Nəticədə, orqanizm qocalır.

Endryu Stivenson 1982-ci ildə Kaliforniya Universitetində aparılan tədqiqatı xatırladaraq fikrini izah etməyə çalışıb: "Həmin vaxt könüllü bir tələbə üzərində maraqlı tədqiqat aparılmışdı. Bir il müddətində qapalı hücrədə saxlanılan tələbənin otağı süni işıqla işıqlandırılırdı. Otaqdakı saat isə ləng işləyirdi. Nəticədə 1 il sonra bu tələbə yalnız 8 ay müddət keçdiyini güman edirdi. Onun orqanizmində aparılan tədqiqatlarda isə bu müddət ərzində tələbənin orqanizminin 1 il yox, 8 ay qocaldığı müəyyən edilmişdir".

Stivenson arxeoloji qazıntılar zamanı yaşı 100-ü ötmüş bir çox insan skletinin tapıldığını deyib. "İbtidai icma quruluşunda insanlar həyatlarını vaxta görə proqramlaşdıra bilmədiklərindən, daha gec qocalır və bu da gec ölmələrinə səbəb olurdu",-deyə söhbətinə əlavə edib.

Qeyd edək ki, Kembric Universitetinin alimi Malkolm Mak Qedi də sivilizasiyadan uzaq, tayfa quruluşunda yaşayan insanların daha çox ömür sürdüyünü və buna əsas səbəbin onların "qollarına saat taxmaması" olduğunu bildirmişdi.





# Bəşəriyyəti xərçəngdən xilas edəcək

**Amerika alimlərinin fikrincə, dinozavrlar və birbaşa onların nəslindən olan timsahlar bəşəriyyəti bir çox xəstəlikdən, o cümlədən xərçəngdən xilas etmək iqtidarındadır.**

Ən qədim sürünənin qalıqlarını öyrənən alimlər müəyyən etmişlər ki, səkkiz metrlik nəhəngin öz yaralarını sağaltmaq kimi nadir bacarığı olub. www.vladtime.ru <http://www.vladtime.ru> saytının yazdığına görə, alimlərin "qorqozavr" adlandırdıqları sürünən təkcə ağır zədələrdən sonra deyil, həm də ciddi xəstəliklərdən sonra bərpa oluna bilirmiş.

Alimlər müəyyənləşdiriblər ki, öyrənilən fərdin qabırğası, ayağı sınıb, ciddi bakterial infeksiyaya yoluxub və onkoloji xəstəlikdən əziyyət çəkib. Lakin bütün yaralarını müalicə edən heyvan xəstəliklərindən asanlıqla qurtulub. Heç bir müasir məməli bu qədər zədənin, xəstəliyin öhdəsindən gəlmək iqtidarında deyil.

Alimlər əmindirlər ki, qorqozavrın möcüzəli şəkildə şəfa tapmasının sirri onun DNT-sindədir. Onların fikrincə, dinozavrların nəsillərindən olan timsahlar ətraflı öyrənilsə, çoxlu kəşflər etmək və bu kəşflərin əsasında bir çox xəstəliklərin, o cümlədən onkoloji xəstəliklərin müalicəsi üçün dərmanlar hazırlamaq olar. Tədqiqatçılar əmindirlər ki, qədim əcdadları kimi, timsahlar və alliqatorlar da bakterial infeksiyalara qarşı mübarizə aparmaq iqtidarındadır.


*BAŞ REDAKTOR*
Rasif İman oğlu
TAHİROV

ÜNVANIMIZ:
Bakı şəhəri,
B. Ağayev küçəsi, 117
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
redaktor müavini
(050) 341-26-40

*Qəzetin təsisçisi*
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "OL" MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 123